# AZƏRBAYCAN RESPUBLİKASININ
# AUDİTORLAR PALATASI ŞURASININ
# QƏRARI

Bakı şəhəri № 226/5 20 dekabr 2011-ci il

Sərbəst auditorların və auditor təşkilatlarının hesabatlarının elektron variantının qəbul olunmasının təşkili barədə

Auditorlar Palatasının 2011-2013-cü illər üzrə iş planının və Palata Şurasının 2011-ci il üzrə iş planının - "Sərbəst auditorların və auditor təşkilatlarının hesabatlarının elektron variantının qəbul olunmasının təşkili" barədə 8.5-ci və 29-cu müvafiq bəndlərinin icrası ilə bağlı "Sərbəst auditorların, auditor təşkilatlarının və xarici auditor təşkilatlarının filialları (və ya nümayəndəlikləri) tərəfindən tərtib edilmiş onların fəaliyyətlərini əks etdirən yarımillik (illik) hesabatların və əlavənin Azərbaycan Respublikası Auditorlar Palatasının elektron ünvanına göndərilməsinə dair Təlimat"ın hazırlanması haqqında Auditin tənzimlənməsi, təşkili və şəffaflığın təminatı idarəsinin rəisi M.Abbasovun məruzəsini müzakirə edərək, Auditorlar Palatasının Şurası

## QƏRARA ALIR:

1. Auditin tənzimlənməsi, təşkili və şəffaflığın təminatı idarəsinin rəisi M.Abbasovun "Sərbəst auditorların və auditor təşkilatlarının hesabatlarının elektron variantının qəbul olunmasının təşkili" barədə məruzəsi nəzərə alınsın (əlavə olunur).

2. "Sərbəst auditorların, auditor təşkilatlarının və xarici auditor təşkilatlarının filialları (və ya nümayəndəlikləri) tərəfindən tərtib edilmiş onların fəaliyyətlərini əks etdirən yarımillik (illik) hesabatların və əlavənin Azərbaycan Respublikası Auditorlar Palatasının elektron ünvanına göndərilməsinə dair Təlimat" təsdiq edilsin (əlavə olunur).

3. Auditin tənzimlənməsi, təşkili və şəffaflığın təminatı idarəsinə (M.Abbasov) tapşırılsın ki, iki həftə müddətində təsdiq edilmiş Təlimat barədə məlumatın sərbəst auditorlara və auditor təşkilatlarının rəhbərlərinə çatdırılması təmin edilsin.

4. Auditin tənzimlənməsi, təşkili və şəffaflığın təminatı idarəsinə (M.Abbasov) və Maliyyə və informasiya təminatı idarəsinə (V.Rəhimov) tapşırılsın ki, təsdiq edilmiş Təlimatın tətbiqi ilə əlaqədar 2012-ci ilin yanvar ayında sərbəst auditorların və auditor təşkilatlarının rəhbərlərinə iştirakı ilə seminarın keçirilməsi təşkil edilsin.

5. Maliyyə və informasiya təminatı idarəsinə (V.Rəhimov) tapşırılsın ki, "Sərbəst auditorların, auditor təşkilatlarının və xarici auditor təşkilatlarının filialları (və ya nümayəndəlikləri) tərəfindən tərtib edilmiş onların fəaliyyətlərini əks etdirən yarımillik (illik) hesabatların və ona əlavənin

Azərbaycan Respublikası Auditorlar Palatasının elektron ünvanına göndərilməsinə dair Təlimat”ın və müvafiq məlumatın Palatanın elektron saytında yerləşdirilməsi təmin edilsin.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**